**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**UNEC**

# ELMİ ŞURA

**31 MAY 2022-Cİ İL**

# QƏRAR EŞ № 183

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**

**ELMİ KATİB:** **Ə.Ə. MUSTAFAYEVA**

**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 42 üzvündən 38 üzvü

## E Ş İ D İ L D İ:

***Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor dos. Neman Muradlı***

*Qaydalara dəyişiklik edilməsi haqqında*

## Q Ə R A R A A L I N D I:

UNEC Elmi Şurasının 06 dekabr 2018-ci il tarixli 162 saylı qərarı ilə təsdiq edilmiş "***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələrinin, professor-müəllim heyətinin və əməkdaşlarının beynəlxalq akademik mobilliyi haqqında" Qaydalarında "Mübadilə Müsabiqə Komissiyasının seçim meyarları cədvəli (əlavə 1)"nə*** müvafiq dəyişikliklər edilməklə yeni redaktədə ***təsdiq edilsin***.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C. MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **Ə.Ə. MUSTAFAYEVA**

**“TƏSDİQ EDİRƏM”**
**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin rektoru, professor**

**Ə.C.Muradov**

# Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələrinin, professor-müəllim heyətinin və əməkdaşlarının akademik mobilliyi haqqında

## Q A Y D A L A R

*(ən son əlavə və dəyişikliklərlə*
*31 may 2022-ci i protokol№183)*

***UNEC Elmi Şurasının 06 dekabr 2018-ci il***

***tarixli 162 saylı qərarı ilə təsdiq edilmişdir.***

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələrinin, professor-müəllim heyətinin və əməkdaşlarınınbeynəlxalq akademik mobilliyi haqqında

# QAYDALAR

Tələbə və professor-müəllim heyətinin beynəlxalq akademik mobilliyi universitetin beynəlxalq əlaqələrinin vacib istiqamətlərindəndir. Beynəlxalq akademik mobillik təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına, elmi tədqiqatların genişləndirilməsinə, idarəetmə sisteminin təkmilləşdirilməsinə, xarici inteqrasiya əlaqələrinin qurulmasına, tələbə və müəllimlərin karyera inkişafı üçün əlavə imkanların yaradılmasına və UNEC-in missiyasının həyata keçirilməsinə xidmət edir.

**BÖLMƏ I. Ümumi müddəalar.**

1. Bu qaydalar Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2009-cu il tarixli Fərmanı ilə qüvvəyə minən "Təhsil haqqında" Azərbaycan Respublikası qanununun "Təhsil sahəsində beynəlxalq əlaqələr" adlı 5-ci fəslin "Təhsil sahəsində beynəlxalq əməkdaşlıq və xarici əlaqələr" adlı 43-cü madəsinin, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin, o cümlədən, Əmək Məcəlləsinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" qaydaları, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ sənədlərinin və Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi əsasında hazırlanmışdır.

2. UNEC-in beynəlxalq akademik mobillik proqramlarında universitetin professor-müəllim heyəti, əməkdaşları, bakalavr, magistratura və doktoranturada təhsil alan və müsabiqə şərtlərinə cavab verən bütün tələbələr iştirak edə bilər.

3. UNEC-in beynəlxalq akademik mobillik proqramlarında iştirak edəcək tələbə və ya müəllimlərin seçilməsi açıq müsabiqə proseduru çərçivəsində həyata keçirilir.

4. Beynəlxalq akademik mobilliyin təminatı üzrə işlərə ümumi rəhbərlik Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor tərəfindən həyata keçirilir. Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor UNEC tərəfindən imzalanmış mobillik haqqında razılaşmaların məzmununu və bu razılaşmaların icra edilməsi ilə əlaqədar bütün prosedur şərtlərinin yerinə yetirilməsinə nəzarəti və monitorinqi həyata keçirir.

5. Beynəlxalq akademik mobilliyin təşkili və informasiya təminatı üzrə bilavasitə iş UNEC-in digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə Beynəlxalq Əməkdaşlıq Departamenti (BƏD) tərəfindən həyata keçirilir.

6. Fakültədə beynəlxalq akademik mobillik proqramları ilə bağlı işlərin icrası dekan tərəfindən təmin edilir.

7. Beynəlxalq akademik mobilliyin maliyyələşdirilməsi aşağıdakı mənbələr hesabına həyatakeçirilə bilər:
   - dövlət büdcəsi vəsaitləri, o cümlədən, milli layihələr çərçivəsində ayrılan vəsaitlər;
   - universitetin vəsaitləri;
   - təhsil məqsədli digər fondların vəsaitləri;

— qəbul edən tərəfin vəsaitləri, o cümlədən, beynəlxalq təşkilatların qrantları;
— akademik mobillik iştirakçılarının şəxsi vəsaitləri.

8. Universitet tələbə və professor-müəllim heyətinin beynəlxalq akademik mobilliyinin sayı və ümumi müddətləri üzrə məhdudiyyətlər təyin etmək hüququna malikdir.

9. "Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələrinin, professor-müəllim heyətinin və əməkdaşlarının beynəlxalq akademik mobilliyi haqqında Qaydalar" UNEC-in müvafiq beynəlxalq anlaşmalar və layihələr çərşivəsində, eyni zamanda Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektorun (və ya Beynəlxalq əməkdaşlıq departamentinin) koordinasiyası altında həyata keçirilən akademik mobillik proqramlarına müraciət edən UNEC-in professor-müəllim heyəti, əməkdaşları, bakalavr, magistratura və doktoranturada təhsil alan tələbələrə şamil olunur.

## BÖLMƏ II. UNEC tələbələrinin akademik mobilliyi.

1. Universitet tələbələrinin beynəlxalq akademik mobilliyi təhsilin davam etdirilməsi məqsədilə onların tərəfdaş ali təhsil müəssisələrinə göndərilməsi formasında həyata keçirilir və bura aşağıdakılar aiddir:

— mübadilə proqramları çərçivəsində təhsil;

— "İkili diplom" proqramları çərçivəsində təhsil;

— təcrübə proqramlarında iştirak;

— yay və yaz məktəblərində iştirak;

2. Beynəlxalq akademik mobillik proqramında iştirak üçün müsabiqə Rektor tərəfindən təyin edilən "Mübadilə Müsabiqə Komissiyası" tərəfindən həyata keçirilir.

3. Müsabiqənin keçirilməsi

3.1. Beynəlxalq akademik mobillik proqramında iştirak üçün müsabiqənin keçirilməsi haqqında elan Beynəlxalq Əməkdaşlıq Departamenti tərəfindən sənədlərin son qəbul tarixindən ən gec 2 həftə öncə UNEC-in saytında yerləşdirilir. Elanlara namizədlərin seçimi prosedurları, şərtləri, müddətləri və meyarları ilə əlaqədar bütün məlumatlar daxil edilir.

3.2. Müraciət üçün əsas şərtlər:

— Tələbənin akademik borcunun olmaması;
— Tələbənin təhsil haqqı borcunun olmaması;
— Tələbənin inzibati tənbehinin olmaması;

3.3. Müsabiqədə iştirak etmək istəyən tələbələr aşağıdakı sənədləri Beynəlxalq Əməkdaşlıq Departamentinə təqdim etməlidir:

— Ərizə /anket (elanda yerləşdirilir və ya proqramın koordinatoru tərəfindən verilir)

— Dekan tərəfindən imzalanmış və möhürlənmiş ümumi orta müvəfəqiyyət balı (ÜOMG) göstərilməklə transkript;
— Təhsil haqqı borcunun olmaması haqqında arayış;
— Tədris Razılığı;
— Məlumat Paketi (CV, passport, niyyət məktubu və digər aidiyyəti olan sənədlər)

3.4. Tələbələrin seçimi təhsildə nailiyyətlər və ictimai fəaliyyətlərdə xidmətləri nəzərə alınmaqla imkanların bərabərliyi prinsipini rəhbər tutaraq açıq müsabiqə proseduru çərçivəsində həyata keçirilir. Müsabiqələr həm online, həm ofline formatda təşkil oluna bilər.
3.5. Müsabiqədə iştirak edən tələbələrin sənədləri "Mübadilə Müsabiqə Komissiyası"na göndərilir və Komissiya tərəfindən Əlavə 1-də verilmiş cədvəldəki meyarlara uyğun qiymətləndirilir.

3.6. Namizədlərin seçilməsində əlavə meyarlar kimi aşağıdakılar qəbul edilir:

— Təhsil alacağı xarici ölkənin ali təhsil müəssisəsinin tədris dilini/dillərini sərbəst şəkildə bilməsini təsdiq edən rəsmi sənədin (məs. TOEFL, IELTS, TestDaF və s.) olması;
— Təhsil alacağı xarici ölkənin ali təhsil müəssisəsi ilə UNEC-in müvafiq fənlər üzrə uyğun gələn fənlərin sayı
— Beynəlxalq akademik mobillik proqramında iştirak nəticəsində tələbənin təhsil müddətinin artması yalnız tələbənin yazılı razılığı əsasında baş verə bilər.

3.7. Komissiyanın işinin sonunda qaliblərin əsas və ehtiyat siyahısı tərtib edilir və UNEC Rektorunun təsdiqinə təqdim edilir.

3.8. Tələbənin xarici ali təhsil müəssisəsində təhsilini davam etdirməsi üçün göndərilməsi haqqında əmr müvafiq fakültənin (məktəbin, mərkəzin) dekanının (rəhbərinin, direktorunun) təqdimatı və Ümumi işlər üzrə prorektorun razılığı əsasında Rektor tərəfindən imzalanır. Təqdimata tələbənin ərizəsi və dəvət məktubu əlavə olunmalıdır.

4. Mübadilə proqramları çərçivəsində tələbələrin akademik mobilliyinin təşkili

4.1. Beynəlxalq akademik mobillik proqramında iştirak üçün seçilmiş tələbələr tyutorla konsultasiyalardan sonra qəbul edən universitetdə keçəcəkləri və tanınmasını istədikləri fənnlərin siyahısını UNEC-də təhsil aldıqları tədris planı üzrə fənnlərə uyğunluğu göstərilməklə, fakültə dekanı tərəfindən imzalanan Tədris Razılığını BƏD-ə təqdim edir. Bu sənəddə beynəlxalq akademik mobillik nəticəsində meydana çıxa biləcək akademik borcların aradan qaldırılması müddətləri üzrə tələbələrin öhdəlikləri də öz əksini tapmalıdır.

4.2. Tədris Razılığı mübadilədən geri döndükdən sonra fənnlərin tanınması üçün əsasdır.

4.3. Beynəlxalq akademik mobillik proqramlarında iştirak edən tələbələrin akademik konsultasiyası və təhsilinin monitorinqi fakültə tyutorları tərəfindən təmin edilir.

4.4. Mübadilə zamanı tələbələrin təhsili Tədris Razılığı və Fərdi tədris planı ilə tənzimlənir.
a. Tədris Razılığı tədrisin həyata keçirildiyi istiqaməti (yaxud ixtisası), təhsil

müddətinin sürəkliliyi, göndərən ali təhsil müəssisəsinin, qəbul edən ali təhsil müəssisəsinin və tələbənin hüquq və öhdəliklərini müəyyən edir. Tədris Razılığında fənnləri və tələbənin tərəfdaş ali təhsil müəssisəsində mənimsəməsi nəzərdə tutulan digər tədris fəaliyyəti növləri göstərilir. Tədris Razılığını üç tərəf: tərəfdaş, ali təhsil müəssisələri və tələbə imzalayır.

b. Fərdi tədris planı (FTP) tələbənin təhsil aldığı fakültədə tərtib edilir. FTP-in layihəsi tədris planını, fənlərin kataloqunu, iş proqramlarını və ya tərəfdaş ali təhsil müəssisəsinin fənnlərinin xülasəsi öyrənildikdən sonra tyutorun iştirakı ilə hazırlanır.

c. FTP tələbənin təhsil aldığı fakültənin dekanı, tyutoru və tələbə tərəfindən imzalanır.

5. Mübadilə proqramı çərçivəsində keçirilmiş fənlərin tanınması

5.1. UNEC-də fənlərin ekvivalentliyinin təyin edilməsi, bu haqqda metodiki tövsiyyələrin işlənib hazırlanması, eləcədə tərəfdaş ali təhsil müəssisəsinin biliklərin qiymətləndirilməsi sisteminin uyğunlaşdırılması işləri "Fənnlərin uyğunlaşdırılması və kreditlərin transferi üzrə Komissiyası" tərəfindən həyata keçirilir.

5.2. Qəbul edən universitetdə təhsili bitdikdən sonra tələbə fənlərin tanınması və kreditlərin transferi məqsədilə sənədlər paketinin hazırlanması üçün dekanlığa keçilmiş fənlərin və digər məşğələ növlərinin adları olan və aldığı kredit və qiymətləri təsdiq edən akademik arayışı (transkript), təsdiqlənmiş fənn sillabuslarını, eləcə də qiymət və balların transferi üzrə cədvəli təqdim etməlidir.

5.3. Başqa təhsil müəssisələrində keçilmiş fənlərin tanınması, fənlərin razılaşdırılması və kreditlərin transferi üçün sənədlər paketinin hazırlanması ilə əlaqədar praktik məsələlərin həllini fakültə dekanı təmin edir.

5.4. Tərəfdaş ali təhsil müəssisəsində fənlərin mənimsənilməsi yükünün UNEC-də olduğundan az olduğu təqdirdə fənnlərin məzmun həcminin əsasən uyğun gəldiyi halda "Fənnlərin tanınması və kreditlərin transferi üzrə Komissiya"nın qərarı ilə fənlər tanına və qəbul edilə bilər.

5.5. Qəbul edilmiş fənlər tələbənin təhsil aldığı fakültənin dekanlığı tərəfindən EDUMAN sistemində tələbənin şəxsi məlumatlarına daxil edilir. Transkript tələbənin şəxsi işində saxlanılır.

5.6. Başqa təhsil müəssisələrində keçilmiş fənlərin tanınması "Fənlərin uyğunlaşdırılması və kreditlərin transferi üzrə Komissiya"-nın sədrinin təqdimatı əsasında Rektorun əmri ilə rəsmiləşdirilir.

5.7. Tələbənin ərizəsi əsasında mübadilə təhsili dövründə fərdi tədris planından əlavə keçilmiş fənlər və onların attestasiyasının nəticələri diploma əlavəyə daxil edilə bilər.

6. Tələbələrin "İkili diplom" proqramları çərçivəsində akademik mobilliyinin təşkili.

6.1. İkili diplom proqramı (İDP) tərəfdaş ali təhsil müəssisələri tərəfindən ixtisaslar üzrə müvafiq dövlət təhsil standartlarındakı tələblər qorunmaqla və təhsil müəssisələrinin ölkələrinin təhsil sahəsindəki qanunvericiliyinin tələblərinə müvafiq qaydada işlənib hazırlanır.

6.2. İDP-nın həyata keçirilməsinin şərti tərəfdaş ali təhsil müəssisələri tərəfindən tədris

müddətlərinin və nəticələrinin qarşılıqlı tanınmasıdır.

6.3. İDP-də iştirak edəcək tələbələrin siyahısı "Mübadilə Müsabiqə Komissiyası" tərəfindən bu Qaydaların Bölmə II 3-cü bəndinin tələblərinə müvafiq qaydada müsabiqə nəticəsində müəyyən edilir və Rektorun əmri ilə rəsmiləşdirilir.

7. Təcrübə proqramlarında iştirak formasında akademik mobillik

7.1. Tələbələrin ixtisas təcrübəsi əsas təhsil proqramının tərkib hissəsi olub tələbələrin praktik iş vərdişlərini mənimsəməsi, nəzəri təhsil prosesində əldə edilmiş bilik, bacarıq və vərdişlərin dərinləşdirilməsi və möhkəmləndirilməsi məqsədilə tədris planları və tədris prosesi qrafikinə uyğun olaraq həyata keçirilir. Təcrübənin məqsəd və həcmləri hazırlıq istiqamətləri (ixtisasları) üzrə müvafiq dövlət təhsil standartları ilə müəyyən edilir.

7.2. Təcrübə proqramlarının sürəkliliyi bir həftədən on dörd həftəyədəkdir. Təcrübə proqramlarının başa çatmasından sonra iştirakçılar təcrübə keçilməsini təsdiqləyici arayış/sertifikat alırlar.

7.3. Təcrübə proqramlarında iştirak edəcək tələbələrin siyahısı "Mübadilə Müsabiqə Komissiyası" tərəfindən bu Qaydaların Bölmə II 3-cü bəndinin tələblərinə müvafiq qaydada müsabiqə nəticəsində müəyyən edilir və Rektorun əmri ilə rəsmiləşdirilir.

7.4. Təcrübə proqramlarından qayıtdıqdan sonra fakültə dekanlıqları təsdiqləyici sənədlər (şəhadətnamələr, sertifikatlar, təcrübə/staj hesabatları və b.) əsasında təcrübə proqramlarının UNEC tərəfindən bu Qaydaların Bölmə II 5-ci bəndinə müvafiq qaydada tanınması və qəbul edilməsinin praktik məsələlərini həll edir.

8. Beynəlxalq akademik mobillik proqramlarında iştirak edən tələbənin UNEC-lə münasibətləri tərəflərin imzalayacağı Fərdi təhsil müqaviləsinə Əlavə ilə tənzimlənir.

## BÖLMƏ III. UNEC professor-müəllim heyətinin və əməkdaşlarının akademik mobilliyi.

1. Universitetin professor-müəllim heyətinin və əməkdaşlarının beynəlxalq akademik mobilliyi xarici ali təhsil və elmi tədqiqat müəssisələri və təşkilatları ilə əməkdaşlıq haqqında müqavilələrə (razılaşmalara) uyğun olaraq həyata keçirilir.

2. Ali təhsil müəssisəsinin professor-müəllim heyətinin və əməkdaşlarının beynəlxalq akademik mobilliyinin əsas məqsədi peşə hazırlığı səviyyəsinin artırılmasıdır.

3. Universitetin müəllimlərinin və əməkdaşlarının beynəlxalq akademik mobilliyinin həyata keçirilməsinin əsas forması onların aşağıda göstərilən məqsədlərlə tərəfdaş ali təhsil müəssisələrinə ezam edilməsidir:
— mühazirələr oxunması, məşğələ və konsultasiyaların keçirilməsi;
— birgə elmi tədqiqatlarda iştirak;
— ixtisas artırma proqramlarında iştirak;
— yaradıcılıq məzuniyyətləri dövründə stajların keçirilməsi;

4. Müsabiqənin keçirilməsi

4.1. Akademik mobillik proqramında iştirak üçün müsabiqənin keçirilməsi haqqında elan BƏD tərəfindən sənədlərin son qəbul tarixindən ən gec 6 həftə öncə UNEC-in saytında yerləşdirilir. Elanlara namizədlərin seçimi prosedurları, şərtləri, müddətləri və meyarları ilə əlaqədar bütün məlumatlar daxil edilir.

4.2. Müsabiqədə iştirak etmək üçün namizədin əsas iş yerinin UNEC-də olması və xarici dil bilikləri olması şərtdir.

4.3. Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədləri BƏD-ə təqdim etməlidir:

— Ərizə /anket (elanda yerləşdirilir və ya proqramın koordinatoru tərəfindən verilir)

— Niyyət məktubu

— CV

4.4. Mübadilə proqramında iştirak edəcək professor-müəllim heyətinin seçimi təhsil, elm və ictimai fəaliyyətlərdə xidmətlər, akademik profil, xarici dil bilikləri səviyyəsi, niyyət məktubunda mübadilənin UNEC üçün əhəmiyyətinin əsaslandırılması, UNEC-in differensial əməkhaqqı sistemində yeri və qəbul edən universitetin dəstək məktubunun olması nəzərə alınaraq həyata keçirilir.

4.5. Müsabiqədə iştirak edən professor-müəllim heyətinin sənədləri "Mübadilə Müsabiqə Komissiyasına" göndərilir və Komissiya tərəfindən Əlavə 1-də verilmiş cədvəldəki meyarlara uyğun qiymətləndirilir.

4.6. Namizədlərin seçilməsində əlavə meyarlar kimi aşağıdakılar qəbul edilir

— Səfər zamanı yeni əməkdaşlıq müqavilələrinin imzalanmasının və mövcud əməkdaşlığın genişləndirilməsinə yönəlmiş tədbirlərin nəzərdə tutulması;

— Səfər zamanı namizədin konkret peşə bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutması;

— Namizədin qəbul edən universitetin dilində UNEC-də dərs deməsi;

— Namizədin pedaqoji stajı.

4.7. Komissiyanın işinin sonunda əsas və ehtiyat qaliblər siyahısı tərtib edilir və UNEC Rektorunun təsdiqinə təqdim edilir.

4.8. Müəllimin xarici ali təhsil müəssisəsinə göndərilməsi haqqında əmr onun ərizəsinin, kafedra müdiri və dekan tərəfindən təsdiqlənmiş dərslərin əvəzlənməsi cədvəlinin və BƏD-in direktorunun təqdimatı əsasında Rektor tərəfindən imzalanır.
Dərslərin əvəzlənməsi cədvəli hazırlandıqda müəllimin dərslərinin başqa müəllim tərəfindən əvəz edilməsinə icazə verilmir və dərslərin ozü tərəfindən başqa vaxtda keçirilməsi şərtdir.
Müəllimin dərslərinin əvəzlənməsi, cədvəlinin bir nüsxəsi Daxili audit şöbəsinə təqdim edilir.

4.9. Müəllim və ya əməkdaşın akademik mobillik çərçivəsində ezamiyyətinin yekunlarına dair hesabat geri döndükdən sonra üç gün ərzində Rektora təqdim edilir.

4.10. Müəllimin və ya əməkdaşın səhvi səbəbi ilə sənədlər lazımi şəkildə qaydaya salınmadan xaricə getməsi üzrsüz işə gəlməmək kimi qiymətləndirilir və inzibati tənbeh tədbirlərinə səbəb olur.

4.11. Bir müəllim bir təhsil ili ərzində yalnız bir mübadilə proqramında iştirak edə bilər.

4.12. Bu bölmənin müddəaları universitetin digər əməkdaşlara da şamil olunur.

**Əlavə 1**

Mübadilə Müsabiqə Komissiyasının
seçim meyarları cədvəli

Təhsil alanlar üçün. Maksimum 20 bal

| № | Meyyar | Bal |
|---|---|---|
| 1 | Akademik göstərici, ÜOMG | 0 –10 |
| 4 | Niyyət məktubu keyfiyyətindən asılı olaraq | 0 –10 |

Professor- müəllim heyəti və əməkdaşlar. Maksimum 20 bal

| № | Meyyar | Bal |
|---|---|---|
| 1 | Akademic profil (CV-in qiymətləndirilməsi) | 0 – 5 |
| 2 | Qəbul edən universitetin dəstək məktubu | 0 – 5 |
| 3 | Mübadilənin UNEC üçün mühümliyinin əsaslandırılması | 0 – 5 |
| 4 | UNEC Differensial əməkhaqqı sistemində yer | 0 – 5 |